**UOT: 343.3/343.9**
https://doi.org/10.59849/2409-4838.2025.2.81

# TAPINTIYA QANUNSUZ OLARAQ MÜLKİYYƏT HÜQUQUNUN ƏLDƏ EDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR

**Nəimi Cəmil oğlu İsmayılzadə**
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası, Bakı, Azərbaycan
*ismayilzadeneimi@gmail.com

*Bu məqalə tapıntı, yəni unudulmuş və ya itirilmiş əşyaya qanunsuz olaraq mülkiyyət hüququnun əldə edilməsi hallarının hüquqi qiymətləndirilməsini təhlil edir. Müəllif bildirir ki, mövcud Azərbaycan qanunvericiliyində bu cür hallar sadəcə Mülki Məcəllə çərçivəsində tənzimlənsə də, cinayət-hüquqi və inzibati-hüquqi baxımdan ciddi normativ boşluq mövcuddur. Məqalədə beynəlxalq təcrübələrə istinad edilərək Türkiyə, Almaniya, Fransa və Nyu-York (ABŞ) ştatı kimi hüquq sistemlərində bu halların cinayət məsuliyyəti daşıması vurğulanır. Müəllifə görə, əşyanı tapan şəxsin onu sahibinə qaytarmaması və ya səlahiyyətli orqanlara məlumat verməməsi artıq etik deyil, hüquqi pozuntu hesab olunmalıdır.*

*Elmi yenilik ondan ibarətdir ki, məqalə "unudulmuş" və "itirilmiş" əşya anlayışları arasındakı hüquqi fərqləri sistemli şəkildə ayırır və təklif edir ki, bu iki hal qanunvericiliklə ayrı-ayrı məsuliyyət formaları ilə tənzimlənsin. Tətbiqi əhəmiyyət baxımından məqalə Azərbaycan Respublikası Cinayət və İnzibati Xətalar Məcəllələrinə yeni maddələrin əlavə olunmasını təklif edir. Bu müdaxilənin həm əmlakın qorunmasına, həm vətəndaş məsuliyyətinin artmasına, həm də cəmiyyətdə hüquqa olan etimadın bərqərar olunmasına xidmət edəcəyi vurğulanır.*

***Açar sözlər:*** *Unudulmuş əşya, itirilmiş əşya, qanunsuz sərəncam, normativ islahat, mülkiyyət hüququ və s.*

## GİRİŞ

Təsəvvür edin, bir şəxs küçədə yerə düşmüş bir telefon, pulqabı və ya digər dəyərli bir əşya tapır. Bu əşyanın üzərində onun sahibinə dair aydın və tanınan məlumatlar yerləşir — şəxsiyyət vəsiqəsi, bank kartı və ya əlaqə nömrəsi kimi. Lakin bu şəxs bu məlumatlardan istifadə edib əşyanın sahibini tapmağa çalışmır; əksinə, həmin əşyanı özündə saxlayır və şəxsi istifadəsinə yönəldir. Cəmiyyətdə bir çoxları üçün bu cür davranışın etik baxımdan doğru olmadığı birmənalı şəkildə qəbul edilir. Lakin hüquqi qiymətləndirmə məsələyə fərqli yanaşma tələb edir.

Azərbaycan Respublikasının hazırkı qanunvericiliyi çərçivəsində, belə hallar yalnız mülki hüquq səviyyəsində həll olunur və Cinayət Məcəlləsində konkret normativ mexanizm mövcud deyil. Bu isə hüquq sistemində əhəmiyyətli boşluq yaradır. Xüsusilə tapılmış əşyaya qəsdən və qanunsuz olaraq mülkiyyət hüququnun əldə edilməsi hallarında hüquqi mexanizmlərin yetərsizliyi, həmin əməllərin cəzasız qalmasına və hüquqa olan ictimai etimadın sarsılmasına səbəb ola bilər. Bu məsələ həmçinin hüquqi mədəniyyətin formalaşmasında önəmli rola malikdir. Nəticə etibarilə, hüquq sistemində tapıntı anlayışının yalnız əşyanın fiziki tapılması ilə deyil, onunla necə rəftar edildiyi ilə də əlaqəli olaraq təhlil edilməsi zəruridir.

## ƏSAS HİSSƏ

Hazırda qüvvədə olan Azərbaycan qanunvericiliyi bu suala tam və qəti bir cavab vermir. Mülki Məcəllənin 186-cı maddəsində bu məsələ sadəcə mülki münasibətlər çərçivəsində müəyyən edilib: tapılan əşya barədə ya əşyanın sahibi, ya da hüquq-mühafizə orqanları məlumatlandırılmalıdır. Əgər bu vəzifə yerinə yetirilmirsə, həmin şəxs bəxşiş hüququndan və digər mülki hüquqlardan məh-

rum edilir. Lakin burada məsuliyyət sadəcə mülki müstəvidə məhdudlaşır. Belə ki, tapıntıya qəsdən və qanunsuz olaraq mülkiyyət hüququnun əldə edilməsi halları cinayət hüququ ilə tənzimlənmir [5].

Bu isə praktikada ciddi boşluq yaradır. Təsəvvür edək ki, şəxs ictimai nəqliyyatda unudulmuş bir portfel tapır və onu qəsdən özününküləşdirir. Əgər bu portfelin içində şəxsi sənədlər, əlaqə vasitələri və sahibinə aid digər dəlillər varsa, artıq həmin şəxs onu sadəcə tapmayıb — eyni zamanda biləräkdən ona qanunsuz olaraq mülkiyyət hüququ əldə edib. Burada artıq etik pozuntu ilə bərabər, hüquqi boşluq da ortaya çıxır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu kimi hallar xüsusi norma ilə əhatə olunmadığından, şəxs cinayət məsuliyyətindən kənarda qalır.

Əslində, hüquq sistemində tapıntı anlayışı sadəcə əşyanın tapılması ilə yox, tapıldıqdan sonra onunla necə rəftar edildiyi ilə də bağlıdır. Əgər tapılan əşya sahibi məlum olan bir şəxsə aiddirsə və əşyanı tapan şəxs bunu dərk etdiyi halda onu geri qaytarmırsa, artıq bu tapıntı deyil — tapılmış əşyaya qanunsuz olaraq mülkiyyət hüququ əldə etmədir. Belə hallarda hüquqi qiymətləndirmə təkcə mülki qaydalarla məhdudlaşmamalıdır. Bu xüsusilə ona görə vacibdir ki, bu cür qeyri-etik hərəkət ictimai davranışlarda hüquqi mədəniyyətin formalaşması kimi mühüm amilə zidd mövqedə dayanır.

Beynəlxalq təcrübə göstərir ki, bu məsələ əksər ölkələrdə daha dəqiq və cinayət-hüquqi çərçivədə tənzimlənir. Məsələn, Türkiyə Respublikasının Türk Ceza Kanunu'nun 160-cı maddəsində bu məsələ konkret şəkildə tənzimlənmişdir. Həmin maddəyə əsasən, "Kaybedilmiş olması nedeniyle malikinin zilyedliğinden çıkmış olan ya da hata sonucu ele geçirilen eşya üzerinde, iade etmeksizin veya yetkili mercileri durumdan haberdar etmeksizin, malik gibi tasarrufta bulunan kişi, şikayet üzerine, bir yıla kadar hapis veya adlî para cezası ile cezalandırılır." Bu, o deməkdir ki, hər hansı bir şəxs tapdığı və ya səhvən əldə etdiyi əşyanı geri qaytarmırsa və bu barədə səlahiyyətli orqanlara məlumat vermirsə, həmin şəxs əşya üzərində sahibi kimi qanunsuz mülkiyyət hüququ əldə etməyə görə məsuliyyətə cəlb edilir [9]. Burada məsuliyyətin tətbiqi üçün şikayət tələbi olsa da, belə bir normanın varlığı hüquq mədəniyyətinin qorunmasına və şəxsi mülkiyyət hüququnun daha effektiv müdafiəsinə xidmət edir. Bu norma hüquqi baxımdan bir tərəfdən mülkiyyət hüququnu qoruyur, digər tərəfdən isə cəmiyyətin dövlətə və hüquq sisteminə etibarını gücləndirir.

ABŞ-ın bəzi ştatlarında isə bu cür hallar oğurluqla eyniləşdirilir və cərimə, həbs və digər cinayət məsuliyyəti tədbirləri nəzərdə tutulur. Xüsusilə, Nyu-York ştatının cinayət qanunvericiliyində bu məsələyə xüsusi yanaşma mövcuddur. Nyu-York Cinayət Məcəlləsinin 165.40-cı maddəsinə əsasən, tapılmış əşyanı bilərəkdən özündə saxlayan, onu qaytarmayan və ya bu barədə hüquq-mühafizə orqanlarına məlumat verməyən şəxs, oğurluq niyyəti ilə hərəkət etdiyi təqdirdə cinayət məsuliyyətinə cəlb olunur. Qanuna görə, əgər şəxs tapdığı əşyanın sahibini müəyyən etməyə qadir olduğu halda bu istiqamətdə heç bir addım atmır və əşyanı öz mülkiyyətinə keçirirsə, bu hal "misappropriation of lost property" — yəni, tapılmış əmlakın mənimsənilməsi kimi dəyərləndirilir [8]. Bu norma yalnız əmlak hüququnun qorunmasına deyil, həm də vətəndaşların hüquqi məsuliyyət hissinin formalaşmasına yönəlib.

Almaniyada da bu məsələ Nyu-York ştatının cinayət qaunurvericiliyinə oxşar şəkildə tənzimlənmişdir. Almaniya Cinayət Məcəlləsinin (Strafgesetzbuch – StGB) 246-cı paraqrafında — "Mənimsəmə" (Unterschlagung) başlığı altında göstərilir ki, "Kim özgəsinə məxsus olan bir əşyanı özü və ya üçüncü bir şəxs üçün qanunsuz olaraq mənimsəyərsə, əgər bu əməl başqa müddəalarda daha ağır cəza ilə cəzalandırılmırsa, üç ilədək azadlıqdan məhrumetmə və ya pul cəriməsi ilə cəzalandırılır." Bu norma spesifik olaraq tapıntı hallarını sadalamasa da, hüquqi təcrübədə əgər bir şəxs tapdığı əşyanı sahibinə qaytarmadan onu qəsdən özü üçün saxlayırsa və bu barədə səlahiyyətli orqanlara məlumat vermirsə, bu davranış 246-cı paraqraf çərçivəsində mənimsəmə kimi dəyərləndirilə bilər [1]. Beləliklə, Alman hüquq sistemində də tapıntı ilə bağlı ayrıca norma olmasa da, mövcud ümumi cinayət norması vasitəsilə bu cür hallar hüquqi məsuliyyət altına salınır və şəxsi əmlakın toxunulmazlığı effektiv şəkildə qorunur.

Fransa hüquq sistemində də tapıntı ilə bağlı ayrıca bir norma olmasa da, bu kimi hallar mövcud cinayət qanunvericiliyindəki ümumi müddəalarla tənzimlənir. Fransız Cinayət Məcəlləsinin

311-1-ci maddəsinə əsasən, "Oğurluq — başqasına məxsus əşyanın saxtakarlıq yolu ilə ələ keçirilməsidir" (Le vol est la soustraction frauduleuse de la chose d'autrui). Bu müddəa hər hansı bir şəxsin özgə əmlakını, o cümlədən tapdığı əşyanı qəsdən və sahibinin razılığı olmadan mənimsəməsini hüquqi baxımdan oğurluq kimi qiymətləndirir. Hüquqi təcrübədə əgər tapılan əşya sahibinə qaytarılmır və onu tapan şəxs əşyanı öz şəxsi mülkiyyətinə keçirirsə, bu artıq oğurluq cinayəti kimi dəyərləndirilə bilər [6]. Beləliklə, Fransa hüququ da Almaniya və Nyu-York hüququnda olduğu kimi, tapıntının mənimsənilməsi hallarını ümumi cinayət tərkibi olan oğurluq çərçivəsində cəzalandırır. Bu yanaşma, hüquqi normativlərin konkretliyindən asılı olmayaraq şəxsi əmlakın qorunmasına yönəlmiş effektiv mexanizmdir və vətəndaşları daha məsuliyyətli davranmağa təşviq edir.

Bu yerə qədər müxtəlif ölkələrin qanunvericiliklərinə istinad etdik və onların hüquqi yanaşmalarını təhlil etdik. Gördük ki, əgər tapıntını tapan şəxs onu bilərəkdən mənimsəyirsə, həmin ölkələrdə bu hərəkət cinayət məsuliyyəti doğurur. Bəzi ölkələrdə bu, ayrıca xüsusi norma ilə tənzimlənir, digərlərində isə oğurluq kimi tövsif olunur və həmin cinayət əməlinin əhatəsində cəzalandırılır.

Azərbaycan qanunvericiliyində isə bu cür cinayət məsuliyyəti nəzərə alınmayıb. Ən başlıca çatışmazlıqlardan biri də odur ki, "itirilmiş" və "unudulmuş" əşya anlayışları arasında hüquqi və normativ səviyyədə açıq bir sərhəd qoyulmayıb. Halbuki bu iki hal arasında yalnız məntiqi və faktiki deyil, həm də hüquqi baxımdan ciddi fərq mövcuddur.

Unudulmuş əşya hallarında, şəxs əmlakı müəyyən səbəbdən, bəzən müvəqqəti olaraq, şüurlu şəkildə bir yerdə saxlayır və daha sonra onu unutmaqla həmin əmlakı orada buraxır. Bu tip hallarda əmlak üzərində faktiki sahibliyin bərpası mümkündür və əşyanın yerləşdiyi yer sahibinə məlum ola bilər. Belə olan halda, həmin əşyanın hər hansı bir şəxs tərəfindən götürülməsi və sahibinə qaytarılmaması artıq hüquqi baxımdan əmlaka qanunsuz olaraq mülkiyyət hüququ əldə etmə kimi qiymətləndirilməlidir [7, 10].

Bunun əksinə olaraq, itirilmiş əşya hallarına baxdıqda, əşya sahibinin iradəsindən kənar şəkildə və xəbəri olmadan əmlak üzərində faktiki hakimiyyəti itirdiyi hallar nəzərdə tutulur. Məsələn, pulqabının yolda salınması və ya açarların cibdən düşməsi kimi hallar bu kateqoriyaya daxildir. Belə vəziyyətlərdə əmlak sahibinin onu geri qaytarmaq ehtimalı olduqca aşağıdır. Eyni zamanda, əşyanın harada və necə itirildiyi məlum olmadığından, tapıntını tapan şəxsin niyyətini obyektiv şəkildə qiymətləndirmək də daha çətin olur [7, 10]. Bu səbəbdən, bu cür hallar üçün nəzərdə daha yüngül cinayət məsuliyyəti nəzərdə tutulması məqsədəuyğun sayılır.

Qanunvericilikdə bu fərqin hüquqi şəkildə tanınmaması isə, faktiki olaraq bu iki anlayış arasındakı sərhədləri bulanıqlaşdırır və nəticədə bu əməllər üçün məsuliyyət nəzərdə tutan normanın gələcək zamanda cinayət qanunverciliyinə daxil edildiyi halda vətəndaşlar arasında müvafiq əməllərin ictimai təhlükəliliyinə dair yanlış təsəvvürlər formalaşa bilər. Əgər şəxs taksidə və ya restoranda unudulmuş bir əşyanı götürüb geri qaytarmırsa, bu əməl sadəcə özgə əmlakına qanunsuz olaraq mülkiyyət əldə etmə kimi deyil, eyni zamanda qanuni sahibin öz əşyasını geri qaytararaq sahibliyini bərpa etmə imkanına da qəsd kimi nəzərə alınmalıdır. Lakin küçədə tapılmış və sahibi məlum olmayan bir əşyaya dair davranışın ictimai təhlükəliliyi daha aşağı və yüngül olaraq dəyərləndirilməlidir. Çünki mülkiyyətçi ona məxsus əşyanı harada düşürdüyünü bilməsi və əşyanı geri qayıdaraq yenidən əldə etməsi ehtimalı çox aşağıdır.

Nəticə olaraq demək olar ki, əmlakın unudulmuş və ya itirilmiş olması faktı hüquqi qiymətləndirmədə əsas meyar kimi qəbul edilməli, bu iki hal üzrə məsuliyyət formaları qanunvericilikdə ayrı-ayrılıqda təsbit olunmalıdır. Əks halda, şəxslərin tapdıqları əmlaka qanunsuz olaraq mülkiyyət əldə etmə halları cəzasız qalacaq və bu da cəmiyyətdə hüquqa hörmət prinsipinin zədələnməsinə gətirib çıxaracaq.

Hüququn məqsədi yalnız münasibətləri nizamlamaq deyil, həm də insanları cəmiyyətin dəyərlərinə və etik normalarına uyğun davranışlara təşviq etməkdir. Bu baxımdan, unudulmuş və ya itirilmiş əşyalara qeyri-qanuni mülkiyyət hüququ əldə etmə hallarının cinayət-hüquqi qiymətləndirilməsi yalnız hüquqi məntiq deyil, həm də cəmiyyətin hüquq duyğusunun inkişafı üçün vacibdir. Əgər bir

şəxs bilə-bilə başqasının əmlakına qanunsuz olaraq mülkiyyət hüququ əldə edirsə və bu cəzasız qalırsa, bu, hüququn tətbiqindəki ədalət prinsipini pozur. Nəticə etibarilə, hüquqi sistemin bu sahədə islahata ehtiyacı vardır. Tapıntı ilə bağlı hüquqi yanaşmaların aydınlaşdırılması və bu cür hallar üzrə məsuliyyətin müəyyən edilməsi həm hüquqi, həm də sosial baxımdan zəruridir. Bu cür dəyişikliklər cəmiyyətin hüquqa olan etimadını artırar, vətəndaş məsuliyyətini yüksəldər və hüquqi mədəniyyəti daha da gücləndirər.

Təhlillərimizdən irəli gələrək, iki hüquqi yanaşma müzakirə oluna bilər. İlk yanaşma tapıntıya qeyri-qanuni olaraq mülkiyyət hüququ əldə etmə halının birbaşa oğurluq cinayəti kimi tövsif edilməsidir. Bunun üçün ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin oğurluq cinayətinin hüquqi təhlilinə dair xüsusi şərh verməsi, ya da Cinayət Məcəlləsinin oğurluq haqqında maddəsinin sonuna bu tip halları əhatə edən izahlı bir qeyd əlavə olunması tələb oluna bilər. Lakin bu istiqamətin hüquqi baxımdan səmərəli olmadığı qənaətindəyəm. Belə ki, oğurluq cinayətinin klassik predmetini təşkil edən əmlak, hələ də sahibinin iradəsi və hüquqi sərəncamı altındadır [3]. Halbuki, itirilmiş və qismən də unudulmuş əşyalar artıq sahibinin faktiki nəzarətindən çıxmış, sərəncam imkanından kənarda qalmış olur. Bu isə onların hüquqi statusunu köklü şəkildə fərqləndirir.

Bundan əlavə, oğurluq cinayətində qəsd – yəni əmlakı qanunsuz olaraq ələ keçirmək niyyəti – adətən hələ əmlak ələ keçirilməmişdən əvvəl formalaşır və şəxs əşyanı ələ keçirmək üçün aktiv hərəkət edir [3]. Lakin tapıntı halında şəxs əvvəlcədən həmin əşyanı əldə etmək məqsədi güdmür, əksinə, əşya ona təsadüfi yolla çatır və yalnız bundan sonra qəsd formalaşır. Bu baxımdan, tapıntıya qanunsuz olaraq mülkiyyət hüququ əldə etmə ilə oğurluq cinayəti arasında həm qəsdin yaranma mərhələsi, həm də əmlak üzərindəki hüquqi status baxımından ciddi fərqlər mövcuddur. Həmçinin bu mübahisəli məsələlərdən biri də gizlilik elementidir. Hüquqşünaslar arasında bu məsələyə dair müxtəlif mövqelər mövcuddur. Bir tərəf iddia edir ki, əşyanı tapan və onu sahibinə qaytarmadan əşyaya qanunsuz olaraq mülkiyyət hüququ əldə edən şəxsin əməlində gizlilik elementi olduğu üçün oğurluq cinayətinin tərkibi formalaşır. Lakin digər hüquqşünaslar – və mən bu mövqeyi daha əsaslı hesab edirəm – birmənalı olaraq bu yanaşmaya zidd mövqedə durur və üsul kimi istifadə olunan gizlilik ilə gizlətmək anlayışı arasındakı fərqə işıq tuturlar. Onların fikrincə, gizlilik dedikdə, şəxsin özgə əmlakını, sahibinin xəbəri olmadan və hər hansı bir fiziki və ya psixoloji maneəni dəf etməklə ələ keçirməsi başa düşülür [3]. Halbuki, tapılmış əmlaka qanunsuz olaraq mülkiyyət hüququ əldə etmə hallarında şəxsin aktiv şəkildə özgə əmlakını əldə etməsi deyil, sadəcə əldə olunmuş əşyanın sonradan qaytarılmaması, yəni gizlədilməsi baş verir. Bu isə hüquqi baxımdan fərqli mahiyyət daşıyır və oğurluqla eyniləşdirilməməlidir.

**YEKUN NƏTİCƏ**

Təklif olunur ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə tapıntı əşyaları ilə bağlı qanunsuz hərəkətləri əhatə edən yeni norma əlavə olunsun. Belə norma tapılmış əşyaya qanunsuz olaraq mülkiyyət hüququ əldə etmə hallarını cinayət hüququ müstəvisində tənzimləməli, xüsusilə də əşyanın unudulmuş və ya itirilmiş olması hallarını hüquqi baxımdan fərqləndirərək konkret hüquqi nəticələr müəyyən etməlidir. Bununla yanaşı, bu cür əməllərə görə yalnız cinayət məsuliyyəti deyil, həm də mülkiyyətçiyə dəymiş zərərin miqdarından asılı olaraq inzibati məsuliyyət tədbirlərinin də tətbiqi nəzərdə tutulmalıdır.

Belə ki, tapılmış əşya üzərində qanunsuz olaraq mülkiyyət hüququ əldə etmə oğurluq cinayətinin klassik tərkibindən fərqlənsə də, bəzi xüsusiyyətləri ilə talama cinayətlərinə yaxın olduğundan, təklif edilən normanın nəzərdə tutduğu cinayət məsuliyyətinin müəyyən edilməsində Cinayət Məcəlləsinin 177-ci maddəsindən sonra verilmiş qeyddə göstərilən "xeyli miqdar", "külli miqdar" və "xüsusilə külli miqdar" ifadələrinin dəyər meyarlarının tətbiqi daha məqsədəuyğun olardı [2]. Bu hüquqi ölçü meyarı gələcəkdə təklif olunan maddə ilə yanaşı 177-ci maddədən sonra təsbit olunmuş qeyd hissəsinin də yeni redaksiyada verilməsini tələb edir. Belə ki, həmin qeydin ikinci hissəsində sadalanan maddələr arasında təklif edilən normada öz əksini tapmalıdır.

Belə yanaşma həm hüquq mühafizə orqanlarının əmələ hüquqi qiymət verməsini asanlaşdıracaq, həm də qanunun icrasında vahidlik prinsipini təmin edəcəkdir. Həmçinin təklif ediləcək normalarda nəzərdə tutulan məsuliyyətin zərər dəyəri ilə proporsional olması ictimai ədalət və hüquqa inam baxımından xüsusi əhəmiyyət daşıyır.

Eyni zamanda, bu sahədə maarifləndirmə tədbirləri gücləndirilməli, cəmiyyət arasında əmlak hüququna hörmət prinsipi formalaşdırılmalı, hüquqi mədəniyyətin inkişafı istiqamətində davamlı fəaliyyət göstərilməlidir.

Bu əsaslarla, Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə əlavə olunması təklif edilən xüsusi normaların konseptual əsasları yuxarıda qeyd edilən prinsiplərə və hüquqi meyarlara uyğun şəkildə müəyyənləşdirilməlidir.

**Cinayət Məcəlləsinə əlavə olunması təklif edilən maddə:**

Əməlin ictimai təhlükəliliyi mülkiyyət münasibətlərinə yönəlmiş olduğundan, bu əməlin İnzibati Xətalar Məcəlləsində "Mülkiyyət əleyhinə olan cinayətlər" fəslinə daxil edilməsi hüquqi baxımdan məqsədəuyğun və sistematik yanaşmaya uyğundur [2].

**Maddə 179-1. Tapıntıya qanunsuz olaraq mülkiyyət hüququ əldə etmə**

**179-1.1.** Özgəsinə məxsus, sahibi tərəfindən itirilmiş əşyanı, yəni sahibinin iradəsindən kənar şəkildə nəzarətindən çıxmış və harada düşdüyü bilinməyən əşyanı tapan şəxsin qəsdən sahibinə və ya səlahiyyətli orqanlara təhvil vermədən həmin əşyaya qanunsuz olaraq mülkiyyət əldə etməsi, zərərçəkənə xeyli miqdarda ziyan vurmaqla törədildikdə —

*iki yüz qırx saatadək ictimai işlər və ya altı ayadək müddətə islah işləri və ya altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

**179-1.2.** Özgəsinə məxsus, sahibi tərəfindən unudulmuş əşyanı, yəni sahibinin şüurlu şəkildə müvəqqəti qoyduğu, lakin sonradan xatırlamayaraq unutduğu əşyanı tapan şəxsin qəsdən sahibinə və ya səlahiyyətli orqanlara təhvil vermədən həmin əşyaya qanunsuz olaraq mülkiyyət əldə etməsi, zərərçəkənə xeyli miqdarda ziyan vurmaqla törədildikdə —

*iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

**İnzibati Xətalar Məcəlləsinə əlavə olunması təklif edilən norma:**

Əməlin ictimai təhlükəliliyi mülkiyyət münasibətlərinə yönəlmiş olduğundan, bu əməlin İnzibati Xətalar Məcəlləsində "Mülkiyyət əleyhinə olan inzibati xətalar" fəslinə daxil edilməsi hüquqi baxımdan məqsədəuyğun və sistematik yanaşmaya uyğundur [4].

**Maddə 227-1. Tapıntıya qanunsuz olaraq mülkiyyət hüququ əldə etmə**

**227-1.1.** Özgəsinə məxsus, sahibi tərəfindən itirilmiş əşyanı, yəni sahibinin iradəsindən kənar şəkildə nəzarətindən çıxmış və harada düşdüyü bilinməyən əşyanı tapan şəxsin qəsdən sahibinə və ya səlahiyyətli orqanlara təhvil vermədən həmin əşyaya qanunsuz olaraq mülkiyyət əldə etməsi, zərərçəkənə az miqdarda ziyan vurmaqla törədildikdə —

*Yüz saatdan yüz altmış saatadək ictimai işlər və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə iki ayadək müddətə inzibati həbs tətbiq edilir.*

**227-1.2.** Özgəsinə məxsus, sahibi tərəfindən unudulmuş əşyanı, yəni sahibinin şüurlu şəkildə müvəqqəti qoyduğu, lakin sonradan xatırlamayaraq unutduğu əşyanı tapan şəxsin qəsdən sahibinə və ya səlahiyyətli orqanlara təhvil vermədən həmin əşyaya qanunsuz olaraq mülkiyyət əldə etməsi, zərərçəkənə az miqdarda ziyan vurmaqla törədildikdə —

*Altmış saatdan yüz saatadək ictimai işlər və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə bir ayadək müddətə inzibati həbs tətbiq edilir.*

***Qeyd:*** *Bu maddədə "az miqdar" dedikdə, beş min manatdan yuxarı olmayan məbləğ başa düşülür.*

## ƏDƏBİYYAT


1. Almaniya Cinayət Məcəlləsi, § 246 - https://dejure.org/gesetze/StGB/246.html
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // 30 dekabr 1999-cu ildə qəbul edilmişdir (10 fevral 2025-ci il tarixinədək olan dəyişikliklərlə). – Bakı: Qanun, – 2025 – 488 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası I hissə, səh. 680-681, 683-684, HYE, 2023
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi // 29 dekabr 2015-ci ildə qəbul edilmişdir (10 iyun 2024-ci il tarixinədək olan dəyişikliklərlə). – Bakı: Qanun, – 2025 – 544 s.
5. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // 28 dekabr 1999-cu ildə qəbul edilmişdir. – Bakı: Qanun, – 2025 – 710 s.
6. https://www.legifrance.gouv.fr/codes/id/LEGISCTA000006136042
7. https://en.wikipedia.org/wiki/Lost%2C_mislaid%2C_and_abandoned_property
8. Nyu-York Cəza Məcəlləsi, 165.1-165.40-cı maddə – https://ypdcrime.com/penal.law/
9. https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.5237.pdf
10. Yuan Quanyao “Analysis on the Concept of Lost Property” // – International Journal of Trend in Research and Development, – 2011, 8 (4), – p. 203-204


## CERTAİN ISSUES REGARDİNG THE UNLAWFUL ACQUİSİTİON OF OWNERSHİP RİGHTS TO FOUND PROPERTY

**N.C. Ismayilzada**


This article analyzes the legal assessment of cases involving the unlawful acquisition of ownership rights to found property, namely items that have been forgotten or lost. The author notes that while such cases are regulated within the framework of the Civil Code under current Azerbaijani legislation, there remains a significant normative gap from both criminal and administrative legal perspectives. Citing international practices, the article emphasizes that legal systems such as those of Turkey, Germany, France, and the State of New York (USA) treat such behavior as criminally liable. According to the author, when a person who finds an item fails to return it to the rightful owner or inform the relevant authorities, this should not merely be considered unethical but legally punishable.

The scientific novelty lies in the article's systematic distinction between the legal definitions of “forgotten” and “lost” property, and the proposal that these two cases be regulated under separate legal responsibility frameworks. In terms of practical significance, the article proposes the addition of new provisions to the Criminal Code and the Code of Administrative Offences of the Republic of Azerbaijan. It is emphasized that such legal amendments would help protect property, enhance civic responsibility, and strengthen public trust in the legal system.


**Key words:** *Forgotten item, lost item, unlawful disposal, regulatory reform, property right, etc.*

# НЕКОТОРЫЕ ВОПРОСЫ НЕЗАКОННОГО ПРИОБРЕТЕНИЯ ПРАВА СОБСТВЕННОСТИ НА НАХОДКУ

**Н.Дж. Исмайылзаде**

В данной статье анализируется правовая оценка случаев незаконного приобретения права собственности на находку, то есть на забытые или утерянные вещи. Автор отмечает, что хотя в действующем законодательстве Азербайджана такие случаи регулируются исключительно в рамках Гражданского кодекса, с точки зрения уголовного и административного права существует серьёзный нормативный пробел. В статье, ссылаясь на международную практику, подчёркивается, что в правовых системах таких стран, как Турция, Германия, Франция и штат Нью-Йорк (США), за такие действия предусмотрена уголовная ответственность. По мнению автора, если лицо, нашедшее вещь, не возвращает её владельцу или не сообщает об этом в компетентные органы, это должно рассматриваться не только как неэтичное, но и как противоправное поведение.

Научная новизна статьи заключается в том, что она системно разграничивает правовые понятия «забытая» и «утерянная» вещь и предлагает регулировать эти два случая разными формами юридической ответственности. С точки зрения практической значимости статья предлагает внести новые статьи в Уголовный кодекс и Кодекс об административных правонарушениях Азербайджанской Республики. Подчёркивается, что такие изменения будут способствовать как защите собственности, так и повышению гражданской ответственности и укреплению доверия общества к правовой системе.

**Ключевые слова:** *Забытая вещь, утерянная вещь, незаконное распоряжение, нормативная реформа, право собственности, и т. д.*